# Müdafiəyə və hərbə hazır yenilməz ordu

***Silahlı Qüvvələrimiz Vətən müharibəsindəki yüksək döyüş qabiliyyətini qoruyub saxlamaqda və uğurla inkişaf etdirməkdədir***



Müzəffər Ali Baş Komandan şanlı Qələbənin qazanılmasının əsasında yalnız ən müasir silahların deyil, Azərbaycan Ordusunun qəhrəman hərbçilərinin dayandığını dəfələrlə vurğulayıb. Bu sözlər Azərbaycan Ordusunun qəhrəmanlığına və peşəkarlığına verilən yüksək qiymətin təsdiqidir. Dövlətimizin başçısı çıxışlarının birində deyib: "Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".

Bu gün Azərbaycan Ordusunun Şuşa uğrundakı döyüşlərdə sıldırım qayaları dırmaşaraq düşməni yalın əl, bıçaq və yüngül atıcı silahlarla məğlub etməsi dünyanın ən məşhur hərbi institutları, ABŞ, Rusiya, Çin və sair dövlətləri tərəfindən araşdırılmaqda, ətraflı şəkildə öyrənilməkdədir. Bütün bunlar şanlı Azərbaycan Ordusunun, bu ordunun Ali Baş Komandanı İlham Əliyevin gücündən, özünəməxsus bacarıq və səriştəsindən xəbər verir. Müasir ordu quruculuğu prosesində Prezident İlham Əliyevin həyata keçirdiyi hər bir islahat, tətbiq etdiyi yenilik son dərəcə səmərəli olub. Bu yeniliklər kompleks yanaşma siyasətinin tərkib elementi kimi çıxış edib. Dövlətimizin başçısının ordu quruculuğu istiqamətində atdığı addımlar sırasında Silahlı Qüvvələrimizin şəxsi heyəti arasında mənəvi baxımdan sağlam ab-havanın yaradılması, yüksək mübarizə əzminin və əhvali-ruhiyyənin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edib. Ötən il həm hava, həm quru, həm də suda ən yüksək səviyyədə təşkil olunan birgə hərbi təlimlər cənab İlham Əliyevin 44 günlük müharibə dövründə ordu quruculuğunda türk modelinə keçməklə bağlı verdiyi bəyanatın praktiki şəkildə həyata keçirildiyini göstərir.

**(davamı 3-cü səhifədə)**

# Müdafiəyə və hərbə hazır yenilməz ordu



*Silahlı Qüvvələrimiz Vətən müharibəsindəki yüksək döyüş qabiliyyətini qoruyub saxlamaqda və uğurla inkişaf etdirməkdədir*

**(əvvəli 1-ci səhifədə)**

Digər tərəfdən bu təlimlər son dövrdə təxribatlarını genişləndirən Ermənistana və bölgədə kirli niyyətlərini gerçəkləşdirmək istəyənlərə qarşı Türkiyə və Azərbaycanın sarsılmaz birliyini nümayiş etdirir. İki ölkə arasında olan hərbi əməkdaşlıq haqqındakı müqavilələrə əsasən, Bakıda Azərbaycan və Türkiyə sualtı hücum və sualtı müdafiə qruplarının birgə təlim-məşqləri, eyni zamanda Laçında komandoların çətin relyefdə hərəkət qabiliyyətlərini və koordinasiya imkanlarını daha da inkişaf etdirmək üçün təlim, Konya şəhərində hava qüvvələrimizin ortaq təlimi və Təkirdağın Gelibolu bölgəsində "qardaş briqada" layihəsi davam edir. Təlimlərdə Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları qardaş ölkənin hərbi qulluqçuları ilə birlikdə əməliyyatların planlaşdırılması, şərti düşmənin terror-diversiya qrupunun zərərsizləşdirilməsi və onların müvəqqəti bazasının məhv edilməsi üzrə döyüş atışlı təlim tapşırıqları yerinə yetiriblər.

"Çiyin-çiyinə dayanan Azərbaycan, Türkiyə və Pakistandan olan xüsusi təyinatlı qardaşlar arasında icra edilən birgə təlimin şahidi olmaq mənim üçün həqiqətən böyük şərəf və qürurdur". Bunu xüsusi vurğulayan Pakistan Silahlı Qüvvələrinin Təhlükəsizlik və Antiterror İdarəsinin rəisi general-mayor Mümtaz Hüseyn bildirib ki, təlim zamanı xüsusi təyinatlıların nümayiş etdirdiyi peşəkarlıq təqdirəlayiqdir.

"Üç qardaş-2021" təlimlərində qarşıya qoyulan məqsədlərə nail olunub. Bu da bütün iştirakçıların peşəkarlıq səviyyəsinin artırılmasına öz töhfəsini verəcək. Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) komandanı general-leytenant Ömer Ertuğrul Erbakan Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş-2021" beynəlxalq təliminin bağlanışına həsr olunan təntənəli mərasimdə: "Aramızda var olan qardaşlıq bağları çox güclü olub və bundan sonra daha da güclənəcək. Üç ölkənin xüsusi təyinatlıları arasındakı qarşılıqlı işbirliyi, təhsil və təlim fəaliyyətləri bundan sonra da davam edəcək", - deyə vurğulayıb. Daha bir uğurlu hərbi təlim Naxçıvanda baş tutub. Belə ki, Naxçıvan Qarnizonu Qoşunlarının "2021-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən taktiki-xüsusi təlimin mövzusu mülki əhali arasında çaxnaşma yaratmağa və təxribat törətməyə hazırlaşan şərti düşmənin təxribat-diversiya qrupunun gizləndiyi binada zərərsizləşdirilməsi olub. Şərti düşmənin təxribat cəhdlərinin qarşısının alınması məqsədilə xüsusi təyinatlı qruplar fərqli istiqamətlərdən və helikopterlərlə terrorçuların gizləndikləri binaya daxil olaraq müxtəlif atəş vasitələrindən istifadə etməklə təxribatçıları zərərsizləşdiriblər. Təlimlərdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu müşahidəçi və təlimatçı qismində iştirak edib. Hərbi qulluqçularımızın peşəkarlıqlarının artırılmasına xidmət edən bu hərbi hazırlıqlar birliyimizin və bərabərliyimizin ifadəsinə çevrilib. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə keçirilən taktiki-xüsusi təlimin uğurla başa çatması Türkiyə Respublikasının Sparta və Kayseri şəhərlərində, Naxçıvandakı Dağ Təlim Mərkəzində təşkil edilmiş kurslarda və 44 günlük Vətən müharibəsində qazanılan döyüş təcrübəsinin peşəkarlıqla tətbiq edilməsinin əyani göstəricisidir. 2021-ci il üçün hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun tank bölmələrinin intensiv döyüş hazırlığı məşğələləri keçirilir.

Azərbaycan Ordusunda hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatlarının da cəlb olunduğu təlimlər davam edir. Təlimlər çərçivəsində pilotsuz uçuş aparatlarının (PUA) heyətləri havadan müxtəlif hündürlüklərdə kəşfiyyat aparır.

PUA heyətləri həmçinin şərti düşmənin mövqelərinin, o cümlədən müdafiəsinin dərinliyindəki hədəflərin aşkar edilməsi və müvafiq məlumatların idarəetmə məntəqələrinə göndərilməsi üzrə tapşırıqları icra edir.

Türkiyənin Konya şəhərində keçirilən Azərbaycan Ordusunun hərbi qulluqçularının da qatıldığı "Anatolian Phoenix-2021" beynəlxalq axtarış-xilasetmə təlimində paraşüt hazırlığı üzrə məşqlər də keçirilib. Məşqlərin keçirilməsində əsas məqsəd şəxsi heyətin paraşütlərdən istifadə vərdişlərinin təkmilləşdirilməsi, həmçinin onların döyüş və xüsusi hazırlıq səviyyəsinin daha da artırılmasıdır. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən Bakıda iyunun 28-də başlayan "Mustafa Kamal Atatürk-2021" birgə döyüş atışlı taktiki təlimlərdə hərbi əməliyyatların aparılması zamanı iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqları nümayiş etdirilib, müxtəlif təlim-döyüş tapşırıqları icra olunub. Türkiyə və Azərbaycan hərbçilərinin "Qış-2021" hərbi təlimlərinin də məqsədi birgə əməliyyatlar zamanı hərəkətlərin koordinasiyasını təmin etmək, həmçinin yeni silahlandırılmanı və nəqliyyat vasitələrini sınaqdan keçirməkdir.

Ümumiyyətlə, Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. Azərbaycan və Türkiyənin "Mustafa Kamal Atatürk-2021", "Anadolu Qartalı-2021", Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının "Üç Qardaş-2021", "Sarsılmaz qardaşlıq-2021" hərbi təlimləri buna sübutdur. Bu günlərdə isə Gürcüstanın paytaxtı Tbilisi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2021" kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib. Beləliklə, mütəmadi olaraq hərbi təlimlərin keçirilməsi dövlətlərarası razılaşmalara əsasən reallaşdırılır. Azərbaycanın ən çox birgə hərbi təlim keçirdiyi ölkə isə dost və qardaş Türkiyədir. Xatırladaq ki, Naxçıvanda "Sarsılmaz qardaşlıq-2021" birgə döyüş atışlı taktiki təlimlər hələ də davam edir.

Döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissəsində 2022-ci tədris ilinin ilk təlim-məşqləri keçirilib. Şəxsi heyətin çətin iqlim şəraitində və kəskin relyefli ərazilərdə taktiki vərdişlərinin təkmilləşdirilməsi, həmçinin komando bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə keçirilən təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində görülən işlər davam etdirilir. Müdafiə Nazirliyinin məlumatına görə, 2022-ci tədris ilində hərbi qulluqçularımızın 30-dan artıq beynəlxalq təlim və yarışlarda iştirakı planlaşdırılır. "Eternity-2022", "EFES-2022", "Sarsılmaz Qardaşlıq - 2022", "Qış təlimi-2022", "Beynəlxalq Ordu Oyunları-2022" və digər beynəlxalq təlim və yarışlara cəlb ediləcək hərbçilərimizin qarşılıqlı təcrübə mübadiləsi nəticəsində bilik və bacarıqlarının artırılmasına müsbət təsir edəcək. Bundan başqa, cari il ərzində hərbi qulluqçularımızın müxtəlif beynəlxalq seminar və konfranslarda iştirakı da nəzərdə tutulub.

Hərbi təlimlər sübut edir ki, Azərbaycan Ordusu Vətən müharibəsində nümayiş etdirdiyi yüksək döyüş qabiliyyətini qoruyub saxlamaqda və uğurla inkişaf etdirməkdədir.

**Mustafa KAMAL,**
**"Respublika".**